

# ÇAHARGAH

(hekayə)

*__Mustafa Çəmənli__*

***Ustad xanəndəmiz Seyid Şuşinskinin əziz xatirəsinə ithaf edirəm.***

***Müəllif***

- Mənsur öldü!!!
- Sərkərdə Mənsur döyüşdə həlak oldu!
- Firuz şahın yeganə oğlu öldü!..

Bu sarsıdıcı xəbər elə bil havaya da hopmuşdu. Sərkərdələr, minbaşılar, yüzbaşılar Mənsurun həlak olmasını hər kəsdən gizli saxlamaq istəyirdilər, amma bu, mümkün idimi?! Deyirlər, yerin də qulağı var.

Əcəl sərkərdə Mənsuru lapdan, gözlənilmədən haqlamışdı. Düşmən üzərində tam qələbə çalındığı, müharibənin sona çatdığı, qələbə bayrağının düşmən torpağına sancıldığı bir zamanda.

Neçə il idi qanlı döyüşlər gedirdi, qan su yerinə axırdı. Artıq vuruşub yorulmuşdular, tökülən qandan çiyrinmişdilər. Ehtirasların soyuduğu, qılıncların qınına, oxların oxdana qoyulduğu, sərkərdə Mənsurun qələbədən sərməst olduğu bir vaxtda hardansa qəflətən, gözlənilmədən bir ox süzdü ona sarı. Sərkərdə Mənsurun sinəsindən bir ah qopdu. Səndələyən sərkərdəni yanındakılar bir göz qırpımında alıb başları üzərinə qaldırdılar.

Qələbə marşı çalan gəranaylar, sinclər, nəfrlər susdu, bayraqlar endirildi. Ətrafdakılar səs-səsə verdilər:

- Mənsuru vurdular!!!
- Vurdular!!! Vurdular!..
- Sərkərdəmizi vurdular!..
- Vurdular... Vurdular...

Beləcə sərkərdələr, minbaşılar, yüzbaşılar Mənsurun ölüm xəbərini gizlədə bilmədilər. Bəd xəbərin ayağı yüngül olur, deyirlər. Bu ölüm xəbəri ayaq açıb yeridi, qanad açıb uçdu...

Axı vətəni yağı düşməndən təmizləyən ölkənin baş sərkərdəsi həlak olmuşdu. Bu xəbərdən sarsılmış qoşun kədər içində idi. Daim onları döyüşə, qələbəyə səsləyən sərkərdələri yox idi daha. Ellər, obalar da qəmə batmışdı. Bu ağır xəbəri heç olması bir müddət Mənsurun atasından, məmləkətin şahından gizli saxlamaq istədilər. Mümkün olmadı. Acı xəbər şaha da çatdı. Dərddən şahın dizi qatlandı, beli büküldü, saç-saqqalı bir gecənin içində ağappaq ağardı. O gündən şah otağına çəkilib guşənişin oldu. O, qəm dəryasında batıb qalmışdı. Kimsəni görüb-eşitmək istəmirdi. Günlər keçirdi, Mənsurun qəbrinin üstündə göy otlar bitmişdi, amma şah hələ də özünə gələ bilməmişdi. O, ucsuz-bucaqsız ölkəsini unudub dərdi ilə baş-başa qalmışdı. Vəzir, vəkil şahın qarşısında ikiqat olub ona təsəlli vermək istəyirdilər: "Şah sağ olsun, - deyirdilər, - ölənlə ölmək olmaz, Allahın əmridi, bir kimsə buna qarşı çıxa bilməz". Amma söylənən kəlamların, gətirilən məsəllərin şaha zərrəcə də təsiri olmurdu. Şah onları elə bil heç eşitmirdi.

Bir gün də təlxək cəsarətlənib şahı güldürmək istəmişdi, amma binəva, hökmdarın qəzəbinə tuş gəlib qiymətli başından olmuşdu. Bir-birindən gözəl cariyələr də şahın könlünü oxşaya bilməmişdilər, əksinə, cariyələri onun yanına göndərən xacəbaşının başı bədənindən üzülmüşdü. Şah qəm içində olduğundan ölkə də qəmə batmışdı. Xalq sərkərdə Mənsuru igidliyinə, mərdliyinə görə çox sevirdi. Vəzir, vəkil hər axşam yığışıb məsləhət-məşvərət eləyir, çarə arayırdılar. Bir axşam vəzir vəkilə dedi ki, bəs, musiqiçilər hələ şahın hüzurunda olmayıb. Əlac onlara qalıb. Deyirlər, musiqi ruhun qidasıdır, bəlkə, onların çalıb-oxumaları şahın dərdini unutdura bildi. Bu musiqiçilər dəstəsi bütün müharibə vaxtı sərkərdə Mənsurun yanında olmuşdular. Döyüşdən sonra istirahət zamanı onlar çalıb-oxuyurdular. Buna görə baş vəzir qoca ud çalanı yanına çağırtdırdı. Sarayda hər kəs ona "Ustad" - deyə müraciət eləyirdi.

Az sonra Ustad vəzirin hüzurundaydı. O:

- Çağrışınızla gəlmişəm, vəzir həzrətləri, - deyə təzim etdi.

Vəzir razılıqla başını tərpədib uzun təsbehinin dənələrini barmaqları arasında sürüşdürə-sürüşdürə dedi:

- Ustad, başımıza gələn qəziyyədən yəqin xəbərin var.
- Bəli, var, vəzir həzrətləri.
- Elə isə, bəlkə, siz bir çarə tapasınız.

Ustad baş endirdi:

- Vəzir həzrətləri, yaxşı bilirsiniz ki, gözəl səs, şirin avaz insan ruhunun qidasıdır. Setardan, uddan, neydən, tənburdan, sincdən, təbildən qopan ecazkar səslər insana dərdini unutdurar, qəlbə dinclik, fərəh gətirər. Mənsur təkcə şahın yox, bütün xalqın oğludur. O, bizim iftixarımızdır. Eşitmişik ki, çoxları öz sənəti ilə şahı ovundurmaq istəyib, amma çox heyif ki, nəticə hasil olmayıb.

Vəzir fikirli halda dilləndi:

- Bəli, heç bir nəticə hasil olmayıb. Bəs, siz nə fikirdəsiniz?
- Vəzir həzrətləri, biz nəğməxanlarıq. Qəlbimizdən keçənləri, sözümüzü nəğməylə, çalğıyla söyləyirik. Dilin deyə bilmədiyini biz musiqi ilə, oxuyub-çalmaqla deyə bilirik. Əlbəttə, bizim də şaha öz töhfəmiz var.
- O nə töhfədir elə?
- Biz sərkərdə Mənsurun həyatını, şücaətini vəsf edəcəyik. Gördüklərimizi musiqi ilə şaha nəql etmək istəyirik.

Vəzir sevincək:

- Çox gözəl, - dedi, - şahı ovundura bilsəniz, sizi böyük ənam gözləyir. Amma bunu bacarmasanız... - Vəzir qıyqacı nəzərlərlə Ustada baxdı. Ustad vəzirin baxışarından oxuduğunu dilinə gətirdi:

- Dar ağacı?!
- Bəli, dar ağacı! Razısan?
- Buyruq sizinkidir, vəzir həzrətləri.

Vəzir:

- Axşam şam yeməyindən sonra şahın hüzurundasınız, - dedi.

Ustad nə düşündüsə, üzünü vəzirə tutub söylədi:

- Vəzir həzrətləri, ağlıma bir şey gəlib.
- O nədir elə?
- Bilirsiniz... Birdə-birə şahın hüzuruna gedib çalmağa, oxumağa başlasaq, qorxuram onun qəzəbinə gələk.

Vəzir:

- Bəli, hər şey ola bilər, - dedi.

Ustad dilləndi:

- Belə olan halda, icazə verin biz şahın otağına yaxın bir otaqda çalıb-oxuyaq. İnanın, şah özü səs eşidib bizi hüzuruna çağıracaq.

Vəzir bir qədər düşünüb:

- Yaxşı, qoyun siz deyən olsun. Gedin hazırlaşın. Amma unutmayın, taleyiniz tükdən asılıdır.

Ustad təzim edib otaqdan çıxdı. Şam yeməyindən sonra musiqiçilər vəzirin yanındaydılar. Vəzir özü də bu tədbirin nəticəsindən nigaran idi. Fikirləşirdi ki, Allah eləməmiş, birdən sazandaların çalıb-oxumaları şahın ruhunu oxşamadı, onu qəzəbləndirdi, bəs onda onu nə gözləyir? İşdir, əgər şah bu çal-çağırdan qəzəblənsə, yəqin, o da cəzasız qalmayacaq. Şah onu da günahlandırıb yaxasını cəlladın əlinə verəcək... Amma başqa yol yoxdu. Vəzir Allahı çağırıb musiqiçiləri şahın otağından iki otaq aralıdakı otağa apardı:

- Bu da sizin otaq. Görün neyləyirsiniz, - deyib baş tərəfə keçib əyləşdi. Sazandalar yerə salınmış döşəkçələrin üstündə yerlərini rahatlayıb musiqi alətlərini səsləndirməyə başladılar. Xanəndə fikrə dalmışdı, onun oxumağından çox şey asılı idi. Əvvəl tütəkçalan başladı. Adi qarğıdan düzəldilmiş bu balaca alətdə nə böyük hikmət varmış. Qamış tütəkdən ətrafa yayılan incə səslər pərdə-pərdə qalxdıqca dağlar, dərələr, ucsuz-bucaqsız çöllər, biçənəklər, ilxı-ilxı atlar, sürü-sürü qoyunlar, qatar-qatar dəvələr göz önündən gəlib keçirdi. Birdən ney səsi ahəstəcə, qeybdən gələn bir inilti sayaq tütəyin harayına yetişdi. Neydən qopan incə səslər, sanki, insanın içindən gələn fəryad idi. Elə bil olub-olmuşları, başa gələnləri nağıl eləyirdi. Nəhayət, qanun da dilə gəldi. Elə bil sərin bir meh əsdi. Ustad bu məqamda udunun səsini tütəyin, neyin, qanunun səslərinə qovuşdurdu. Udun səsi adamı elə bil sakitliyə, təmkinli olmağa səsləyirdi. Bu müxtəlif səsli, müxtəlif biçimli musiqi alətlərindən qopan səslər bir-birinə qovuşub o qədər gözəl ahəng yaratmışdı ki, bayaqdan onlara qulaq asan vəzir, sanki, vəzirliyini unutmuşdu. Musiqi alətlərindən ətrafa səpələnən, otaqda əks-səda verən bu əlvan səslər gah qabaran, gah da çəkilən dənizi xatırladırdı.

Nəhayət musiqi alətlərindən qopan səslər gənc xanəndəni vəcdə gətirdi. O, qavalı ilə nəğməsinə bəhr tutaraq oxumağa başladı. O, oxuduqca coşur, bir səməndər quşu kimi özünü yandırıb-yaxırdı. Xanəndənin segah nəfəsləri adamın ağlını başından alırdı. Elə bil yerin, göyün, kainatın sirri, sehri vardı onun səsində. O, bu an sanki yerlə-göylə əlləşən kəhər atın belində idi. Səsini cövlan etdirirdi. Xanəndə artıq ətrafdakıları da, özünü də büsbütün unutmuşdu. O, tamam başqa bir aləmdə idi. Budaqların zümzüməsi, quşların cəhcəhi, atların kişnərtisi, hay-haray, qıyxırıq, min bir qırımlar onun səsində, oxumağında cəmləşmişdi. O, gah layla çalır, gah ağı deyirdi, gah yerdən danışırdı, gah göydən, gah nikbin olurdu, gah bədbin, gah məzlum olurdu, gah qəhrəman, gah sevirdi, sevilirdi, gah da ağrıdan, uğursuzluqdan, ümidsizlikdən ilan kimi qıvrılıb pərişan olurdu. O, gah piyada olurdu, gah atlı. Bəmdə hekayətçiyə dönürdü, zildə üsyançıya. Gah məğlub olurdu, gah qalib. Səsi şimşək kimi çaxırdı. Gah günlü günə dönürdü, gah leysan yağışa. Bu an o, sanki, sərkədə Mənsurun özü idi. Sevib-sevilən, şadlanan, kədərlənən, gah geriyə çəkilib nəfəs dərən, gah da yeni qüvvə ilə düşmənin üstünə şığıyan Mənsurun! Vəzirin gözləri dolmuşdu. Xanəndə oxuduqca ona elə gəlirdi ki, onun heç zaman görmədiyi qapılar üzünə taybatay açılır. Bu qapıların arxasında var-dövlət, cah-cəlal yoxdu, amma bunlardan da qüdrətli, qiymətli, möhtəşəm, nə isə qeyri-adi bir şey vardı. Yox, bu ölçüyə, çəkiyə gəlməyən, gözlə görünməyən səsdəki hikmət Tanrıdan gəlirdi. Tanrı tək-tək adamlara ürəkoxşayan səs göndərmişdi ki, insanlar dərddən qovrulanda onların narahatlıqlarına şərik olsun. İndi budur, vəzirin qarşısında dizi üstə oturub səsini göylərə ucaltmış bu cavan xanəndə qəzəbli ürəkləri muma döndərir, qəlbin gözlə görünməyən atəşgahından dirəklənən alovun üstünə su səpirdi. Bu səs yatmış duyğuları oyadır, unudulanları yada salır, insanları hüşyar olmağa səsləyirdi. Xanəndə göyün ənginliklərindən üzüaşağı şığıyan quş kimi pərdə-pərdə aşağı enirdi. O, muğama hansı qapıdan girmişdisə, o qapıdan da çıxırdı. O, muğama yenicə "ayaq" verib susmuşdu ki, qapı açıldı. Gələn eşikağası idi. O, üzünü vəzirə tutub:

- Vəzir həzrətləri, şah sizi çağırır, - dedi.

Vəzirin rəngi ağardı:

- Xeyirdimi? - soruşdu.
- Deyə bilmərəm, amma şah qəzəbli deyil. İnşallah xeyir olar.

Vəzir tez yerindən qalxıb şahın yanına tələsdi. Musiqiçilər susub işin sonunu gözləyirdilər.

Vəzir Allahı çağırıb şahın otağına girdi:

- Buyurun, qibleyi-aləm.

Şah:

- Qulağıma elə gözəl musiqi səsi gəldi ki... Bəh, bəh... Xanəndə nə gözəl oxuyurdu. Elə bil Həzrəti-Davuddu, - dedi.

Vəzir ürəkləndi:

- Şah sağ olsun, onlar sizin hüzurunuzda çalıb-oxumaq istəyirdilər. Mən qoymadım, qorxdum ovqatınız təlx ola, - dedi.
- Vəzir, onlar çalıb-oxuduqca Mənsurum gözlərim önündən getmirdi.

Vəzir dərindən köks ötürdü:

- Əlahəzrət, bu musiqidə çox böyük hikmət var. Onu icad eləyənlər, məlahətli səsi olan xanəndələr Tanrının sevimli bəndələridir. İnanın, musiqi olmasa insan qəmin əlində girinc olar.
- Doğru deyirsən, vəzir, gecələr adamın üstünə yeriyən qəm ləşgəri düşmənin ordusundan da güclüdür. Sən qaçırsan, o qovur.
- Elədi, şah sağ olsun. İnsana həmişə şadlıq içində yaşamaq qismət olmur. Dərd-qəm də bizim yol yoldaşımızdır.

Şah dedi:

- Bəli, elədir. İlahinin məsləhəti belədir, əlimizdən nə gəlir... O çalğıçıları çağır gəlsinlər.

Vəzir baş əyib çıxdı, qapının ağzında keşik çəkən fərraşa, fərraş da bir qədər kənarda durmuş qulama dedi ki, şah sazandaları gözləyir, çağır, hökmdarın hüzuruna gəlsinlər. Musiqiçilər tez yerlərindən qalxıb şahın hüzuruna gəldilər. Təzim edib şahın əmrini gözlədilər. Şah onlara oturmaq işarəsi verdi. Ustad vəzirin üzündəki məmnunluq ifadəsini görüb rahat nəfəs aldı.

Şah üzünü musiqiçilərdən ən yaşlısı olan Ustada tutdu:

- Vəzir mənə söylədi ki, sizin mənə nəsə bir töhfəniz var. O nədir elə?

Ustad udunu yerə qoyub ayağa qalxdı, təzim elədi:

- Şah sağ olsun, biz bütün döyüşlərdə sizin oğlunuz, bizim böyük sərkərdəmiz Mənsurun yanında olmuşuq. Çox qanlı döyüşlərin şahidiyik. Ölüm-itim görmüşük, sevinmişik, sarsılmışıq, kədərlənmişik. İndi həmin dərdimizi, sevincimizi nəğmələrə çevirmişik. Şah sağ olsun, hər kəs öz sənətinə, peşəsinə görə gördüklərini rəsm edir. Biri nəzmə çəkir, biri salnamə yazır, bir başqası xalça toxuyur. Biz də gördüklərimizi, eşitdiklərimizi musiqi ilə rəsm edirik.... Şah sağ olsun, biz ruh adamıyıq. Qəlb ovsunçusuyuq. Bir kimsə bizdən zərər görməz. İcazə verin bu gün igid Mənsurun şərəfinə "Çahargah" muğamını çalıb-oxuyaq.

Şah yerində rahatlandı:

- Buyurun, buyurun, - dedi.

Musiqiçilər yerlərini tutdular. Ustad yan-yana əyləşmiş çalğıçılara "Başlayın" işarəsi verdi. Çalğıçılar gözəl bir dəraməd başladılar. Dəraməd bitər-bitməz gənc xanəndənin səsi ucaldı. O, zil pərdədə oxuya-oxuya zəngulələr vururdu. Sanki göy guruldayır, şimşək çaxırdı. Xanəndə elə bil döyüş ərəfəsində idi. O, oxuya-oxuya muğamın "Mayə"sinə düşdü. Sanki uca dağ başından asta-asta dərəyə enirdi. Bayaqdan nərilti-gurultu salmış dağ seli sakitləşib indi öz məcrasına qovuşmuşdu. Şah gözlərini yumub huş-guşla xanəndəyə qulaq asırdı. Onun incə səsi, bu səsin nəğməli hekayəti, yaratdığı qövsi-qüzeh şahın ruhunu oxşayırdı. Xanəndə muğamın hər şöbəsini tamamlayanda təsnif oxuyurdu. Onun oxuduğu təsniflər adama qəribə bir dinclik, bahar ovqatı gətirirdi. Şah muğamdakı qəhrəmanlıq ruhunu çox aydınca duyurdu. Xanəndə hər kəsi, hər şeyi unutmuş kimi idi. Artıq o öz aləmində, öz dünyasındaydı. Bir səməndər quşu olub özünü oda atmışdı. Xanəndə muğamın "Mənsuriyyə" şöbəsini oxuyanda şah oğlunun şərəfinə bəstələnmiş bu təntənəli musiqiyə, yeri-göyü yandıran səsə sakit qulaq asa bilmədi, ayağa qalxdı. Vəzir də cəld qalxıb şahın yanında durdu. Xanəndə gözlərini yumub bütün varlığıyla oxuyurdu. O, bənzərsiz səsi ilə Vətənin azadlığı uğrunda canından keçmiş Mənsurun şücaətini vəsf eləyirdi. Onun hər nəfəsi, vurduğu hər zəngulə ürəklərə od salırdı. Xanəndənin səsi gah qartal kimi göyün ənginliyinə baş vurur, gah da qanadlarını açıb sakit-sakit süzürdü. Çağıçılar xanəndənin əpşə qalxan səsinin ardınca düşmüşdülər. Şahla vəzir hələ də ayaq üstə dayanmışdı. Nəhayət, xanəndə son zənguləsini vurub susdu.

Şah keçib taxtında əyləşdi:

- Hər birinizə böyük ənam verəcəyəm. Amma bir az bu çalıb-oxumanızı şərh eləyin, qulaq asaq. Doğrudan da, bu muğamat böyük bir aləmmiş.

Ustad baş əydi:

-Şah sağ olsun, bizim indicə çalıb-oxuduğumuz bu "Çahargah" muğamı rəmzlərlə, eyhamlarla doludur.

- "Çahargah" nə deməkdir? - Şah soruşdu.

Ustad:

- Şah sağ olsun, "çahar" dörd, "gah" isə məkan, mövqe, hal, vəziyyət deməkdir, - dedi.

Şah:

- Çox gözəl, buyurun, sizi dinləyirik, - deyib yerində rahatlandı.

Ustad:

- Qibleyi-aləm, elə mətləblər var, onu adi sözlə dedikdə öz gözəlliyini itirir. Elə dəruni hisslər var ki, onu sözlə ifadə etmək çox çətindi. Biz muğamın əvvəlində dəraməd çaldıq. Çaldığımız bu dəraməddə bir xəbərdarlıq, nigarançılıq, səfərbərlik ovqatı var. Dəraməddə belə bir əhvali-ruhiyyə var ki, sanki, nə isə gözlənilməz bir hadisə baş verəcək. Sonra biz dəraməddən muğamın "Maye"sinə keçdik. Bu an sanki göy guruldadı, şimşək çaxdı. Bu şöbədə bir təlaş, hay-haray var. Bu təlaş, hay-haray xanəndənin səsində də aydınca duyulurdu. Çünki muğamın bu yerində artıq müharibənin başlanmasından, məmləkətin təhlükədə olmasından söhbət açılır, -deyə Ustad dərindən nəfəsini dərdi. Sonra dedi:

- Qibleyi-aləm, bu muğamın "Maye"sində bir "Bədr" guşəsi də var. O, on dörd gecəlik Aya işarədir. Çünki müharibə belə bir aylı gecədə başlayıb. Musiqi dili ilə deyilir ki, fəslin gözəl çağıdı, amma düşmən heç nəyə baxmır, bütün gözəlliklərin üstündən keçib, üstümüzə yeriyib.

Bu yerdə Ustad udunu dizləri üstünə aldı:

- Şah sağ olsun, bu da muğamın "Bəstə-nigar" şöbəsidir, - dedi və çalmağa başladı. Bir xeyli çaldıqdan sonra söhbətinə davam elədi:

- Şah sağ olsun, bu şöbədə çalmaq da, oxumaq da çox təsirlidir. Muğamın bu yerində xanəndə də çox yanıqlı, təsirli oxuyur. Çünki döyüşə gedənlərni yola salan qız-gəlinin, əlsiz-ayaqsızların, qarıların, qocaların ah-fəryadı, göz yaşları, ayrılıq həsrəti, nigarançılıq ovqatı var burda... Əlahəzrət, bu "Bəstə-nigar"ın içində nələr yoxdur?! Burada "Bidad" deyilən bir guşə də var. Bu guşədə xanəndə, sanki, haray çəkir. Bundan başqa "Bəstə-nigar"ın içində "Əbülçəsp" deyilən nəğmə də oxunur. Bu, ölüyuyanların nəğməsidir. Bu nəğmə ona görə çalınıb-oxunur ki, heç bir müharibə ölüm-itimsiz olmur. "Bəstə-nigar"ın içərisində "Bal-Kəbutər" deyilən bir güşə də var. Bu guşədə də rəmz var. "Bal" qanad, "kəbutər" göyərçin deməkdir. Çoxları fikirləşə bilər ki, əcəba, bu guşəyə "göyərçin qanadı" adı verməkdə məram nədir? Əslində, hər şey çox aydındır. Bu guşədə süvarilər anılıb, onların minib düşmən üstünə getdikləri quşqanadlı, qaçağan atlara işarə edilir. Bəli, at igidin qardaşıdı, deyiblər. Bizim igidlər at belində doğulub, at belində qocalıb, elə at belində də haqqa qovuşub. - Bu məqamda Ustad yenə udunu çalmağa başladı, o biri çalğıçılar da ona qoşuldular. Ustad bayaqdan söylədiklərini bir daha canlandıraraq şaha muğamatın nələrə qadir olduğunu göstərmək istəyirdi. Musiqi ara verəndə şah dedi:

- Ustad, indi çalıb-oxuduğunuz bu "Bəstə-nigar"a bayaq qulaq assam da, indi məni yormadı, elə bildim birinci dəfədir eşidirəm.
- Elədir, şah sağ olsun, muğamatın böyüklüyü, əlçatmazlığı da burdadır. Yol həmən yoldur, amma həmən yolu həmişə eyni yerişlə getmirik ha. Bu muğama bir gündə yüz dəfə qulaq assaq, yenə hər dəfə bizə təzə-tər gələcək. Axı çalıb-oxuyanların da, onlara qulaq asanların da ovqatı, əhvalı hər an eyni olmur. Cürbəcür - dərdli, sevincli, qəzəbli, həlim... anlar yaşayırıq. Musiqi də bizə ovqatımıza görə təsir eləyir. Bu muğamatda insan hislərinin min bir qatı var. Muğamat çatılmış nəhəng tonqala bənzəyir, hər kəs bu tonqalın daha da alovlanması üçün bir əlçim nəsə atıb. Bu muğamatda xasiyyətimiz, məramımız, toy-düyünümüz, yurdumuz, dağımız, dərəmiz, ormanlarımız, çaylarımız, bulaqlarımız əbədiləşib... Bir sözlə, bütün həyatımız, yaşayışımız, keçmişimiz, indimiz, gələcəyimiz var...

Ustad danışır, şah məmnun-məmnun qulaq asırdı:

- Şah sağ olsun, bu muğamat dəryadı, kim desə ki, mən bu dəryaya baş vurub üzüb çıxdım, yalan deyir. Biz bu dəryadan bir piyalə götürüb ondan danışırıq... Bəli, təkcə bu "Bəstə-nigar"da nələr yoxdur, nələr deyilməyib. Bu şöbədə bir "Zəngi-şötər" guşəsi də var. Orda döyüş sursatı yüklənmiş dəvələr yad edilib. Müharibənin baş verdiyi yerin qayalıq olduğu də nəzərdən qaçırılmayıb. Bu da "Zəmin-xarə"də izhar olunub. Nəsə, "Bəstə-nigar" sona yetir, biz rəng çalırıq. Axı saatlarla vuruşmaq olmaz. Qoşun dincəlib düşmənin üzərinə yeni qüvvə ilə həmlə etməlidir. Şahım, bu rəngdən - bu dinclikdən sonra muğamın "Hasar" hissəsi oxunur. Burada qoşunun düşmən qalasının hasarına çatması, hər iki tərəfin qarşı-qarşıya vuruşması musiqi dili ilə nəql edilir. Əlahəzrət, icazə verin, "Hasar" hissəsini biz çalaq, xanəndəmiz də bir daha oxusun.

Şah:

- Buyurun, buyurun, oxusun qulaq asaq, görək o düşmən hasarını necə adlayırıq, - dedi.

Ustad dedi:

- Şah sağ olsun, "Hasar"da, sanki, qoşunlar üz-üzədi. Ölüm-dirim savaşı gedir. Bu hissədə bir hay-haray, fəryad, həyəcan, təntənə var. İndi biz bunu əyani göstərək, - deyib Ustad sazandalara çalmaq işarəsi verdi.

"Hasar" şöbəsi oxunduqdan sonra Ustad dedi:

- Şah sağ olsun, "Hasar"dan sonra indi biz "Müalif" musiqi parçasını çalıb-oxuyacağıq. Bu parçada çalmaq da, oxumaq da həzindi, kədərlidi. Ona görə ki, döyüş zamanı ölənlər, yaralananlar, itkin düşənlər var. Buyurun, qulaq asın...

Xanəndə "Müalif" oxuyub susdu. Ustad dedi:

- İndi "Qərra" çalıb-oxuyacağıq. Hökmdar, "Qərra" tarixə işarədir. Dinləyək.

Xanəndə "Qərra" oxumağa başladı, "Müxalif"ə keçid anında Ustad şərh etmədən - "Müxalif" - deyə səsini qaldırdı. Xanəndə "Müxalif"ə keçdi və sanki başqa bir aləmə qədəm qoydu.

Xanəndə "Müxalif" oxuyub son zənguləsini vuranda Ustad söylədi:

- Ey böyük hökmdar, Siz "Müxalif"dəki müxalifliyi, qarşıdurmanı, çarpışıb-vuruşmanı hiss elədinizmi?

Şah gülümsədi:

- Nəinki hiss elədim, elə bildim qoşunun önündəyəm.
- Şahım, bu "Müxalif"də Sizin, məmləkətinizin, xalqınızın ruhu çırpınır. Ondakı üsyankar ruh heç zaman ölməz, o, əbədidir. İndi bizim incə səsli xanəndəmiz "Məğlub" miusiqi parçasını oxuyacaq. Bununla xanəndə sərkərdə Mənsurun həlak olduğunu car çəkir. "Məğlub"dan sonra unudulmaz sərkərdəmizin şərəfinə "Mənsuriyyə" oxunacaq.

Xanəndə "Mənsuriyyə"ni bayaqkından da gözəl oxudu.

Muğamı bitirib Ustada baxdı. Ustad dedi:

- Hökmdar, bu "Mənsuriyyə"də həm qəhrəmanlıq ovqatı var, həm də gizli bir kədər.

Şahın diqqətlə dinlədiyini görən Ustad davam etdi:

- "Mənsuriyyə"də qəhrəman Mənsurun sücaəti vəsf olunub. Hökmdar, bütün muğamların sonunda "ayaq" verilir. Bu bir qaydadır. Xanəndə muğama hansı qapıdan girirsə, muğamı bitirəndə də o qapıdan çıxır. Amma "Çahargah" muğamı qəhrəmanlıq dastanı olduğundan ona "ayaq" verilmir, "Firuz"la bitir. Çünki "firuz" həm də qələbə deməkdir. Sərkərdə Mənsur döyüşdə həlak olsa da, onun qoşunu düşmən üzərində qələbə çalmışdı. Bu qələbədə sizin də payınız var. Sizin adınız da bu muğamın möhürbəndində qələbə rəmzi olubdur.

Ustad sözünü bitirib udunu yerə qoydu:

- Bizim musiqili hekayətimiz burada bitir, hökmdar, - dedi.
- Bu hekayət həmişə yaşayacaq, Ustad. Amma bir şeyi də bilmək istəyirəm. Bizim bəzi muğamların əvvəlindəki "Bayatı" ləfzi nə ilə bağlıdır? "Bayatı-İsfəhan", "Bayatı-Şiraz", "Bayatı-Əcəm"...
- Hökmdar, "Bayatı" ləfzi ayrıca bir hekayətdir. Əslində, muğamların əvvəlində səslənən bu "Bayatı" kəlamı xalqımızın gizli möhürbəndidir. Şahım, bizim ulu əcdadımız Oğuz xan vaxtilə çoxlu məmləkətlər istila edibdir. Oğuzların 24 boyu vardı. Bu boylardan birisi də bayatlar idi. Bayatlar çox comərd, vuruşan idilər. Onlar döyüşlərdə sücaətlər göstərir, həmlələr edib qalalar, şəhərlər tuturdular. Musiqiçilər də bu qələbələrin şərəfinə nəğmələr bəstələyirdilər. Ona görə də muğamların bir çoxunun əvvəlinə "Bayatı" ləfzini əlavə edirdilər. Bunlar hamısı bayatlılara, onların qəhrəmanlıqlarına işarədir. Biz də oğuzların bayat qolundanıq, ona görə, muğama belə ürəkdən, candan bağlıyıq.
- Deməli, səbəbsiz heç nə yoxdur, Ustad, - Şah dedi.
- Əlbəttə, hökmdar, bu dünyada izsiz heç nə yoxdur, hər bir işin, əməlin öz izi, öz möhürbəndi var. Muğamlarla bağlı söhbətlər bir gecəyə sığmaz, o da "Min bir gecə" nağılı kimidir, ardı qalsın gələn gecəyə...

Şah Ustadın təklifini qəbul etdi və onlara bahalı hədiyyələr verib yola saldı.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat pros
"AZƏRBAYCAN" nəşriyyat
**Telefon: 538-05-50, 538-51-**
**Faks: 539-80-**
**adaletqezeti@raml**
**adaletqezeti@mail.ru, adale**